

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 56 (21.717)

19 mart 2017-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Martın 18-də Bakıda Azərbaycan xalqının milli bayramı – Novruz münasibətilə ümumxalq şənliyi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Novruz şənliyində iştirak ediblər.

Bakıda keçirilən V Qlobal Bakı Forumunun yüksək səviyyəli iştirakçıları da Novruz şənliyinə qatılıblar.

Dövlətimizin başçısı və xanımı əvvəlcə Qız qalasının qarşısındakı meydana gəldilər.

Bahar qız Azərbaycan Prezidentinə Novruz xonçası təqdim etdi, dövlətimizin başçısına və xanımına bayram münasibətilə təbriklərini çatdırdı.

Ulu Dədə Qorqud xeyir-dua verərək Novruz bayramının xalqımıza ruzi-bərəkət gətirməsini arzuladı.

Prezident İlham Əliyev Novruz tonqalını alovlandırdı.

Dövlətimizin başçısı bayram şənliyində nitq söylədi.

Sonra dövlətimizin başçısı, xanımı, xarici qonaqlar və ümumxalq şənliyinin digər iştirakçıları "Novruz" yarmarkası ilə tanış oldular.

## Naxçıvanda Novruz bayramı qeyd olunmuşdur







Azərbaycan xalqının zəngin milli dəyərlər sistemini və adət-ənənələrini özündə yaşadan bayramlar sırasında Novruz xüsusi yer tutur. Xalqımızın mənəvi dünyası və həyata baxışı Novruz mərasimlərində dolğun əks olunmuş, bu bayram milli varlığın rəmzinə çevrilmişdir. Hər il xalqımız Novruz bayramını böyük təntənə ilə qeyd edir, baharın gəlişini xoş əhval-ruhiyyə ilə qarşılayır. Ölkə Prezidenti cənab İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrikində dediyi kimi: ***"Novruz bayramı ulu babalarımızın zəngin mənəvi aləmini dolğun təcəssüm etdirir. Ən qədim təsəvvürləri qoruyub saxlamış bu bayram təbiətlə insanın sarsılmaz vəhdətinə dərin ehtiramın ifadəsidir. Odlar diyarına onun hər gəlişi min illərin ənənəsinə uyğun, rəngarəng mərasimlər və el şənlikləri ilə müşayiət olunmuşdur. Milli özünüdərkin təşəkkülündə müstəsna mövqeyə malik Novruz ənənələri çoxəsrlik tarixi keçmişinə daim ehtiramla yanaşan xalqımızın dünya mədəniyyətinə misilsiz töhfələrindəndir. Həmin ənənələrin müqəddəs ərməğan kimi həmişə uca tutulması və layiqincə yaşadılaraq gələcək nəsillərə çatdırılması hər bir azərbaycanlının vətəndaşlıq borcudur".***

Novruz bayramı bu il də Naxçıvan Muxtar Respublikasında əmin-amanlıq və iqtisadi yüksəliş şəraitində qeyd olunur.

Martın 18-də "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində Novruz bayramı münasibətilə bayram şənliyi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ailə üzvləri ilə birlikdə bayram şənliyində iştirak etmişdir.

Milli geyimli qız Ali Məclisin Sədrinə Novruzun rəmzi olan səməni təqdim etmişdir.

El ağsaqqalı Dədə Qorqud Novruzun gəlişi münasibətilə xeyir-dua verərək demişdir: "Bu gün Oğuz yurduna Novruz gəlir. El tonqal başına yığışır, köhnə ildən arınaraq yeni ili qarşılayır. Ulu Novruz, qədəmlərin sayalı olsun! Ötən il böyük əməllərlə yadda qaldı. Düşərli olsun! Qədim Naxçıvanımız Əlincə qalasına qovuşdu. Gülüstan və Qarabağlar türbələrinə yeni nəfəs verildi. Yaşar olsun! Qorqud ata deyir ki, bütün bunların yaradanı var. Ömrü uzun olsun! Bu əziz gündə diləyimiz budur: xalq üçün yaradanları, xalq da yaşadacaqdır!"

Xalq qəhrəmanı Koroğlu təbriklərini çatdıraraq demişdir ki, nə qədər ki, bu yurdun əyilməz, polad biləkli oğulları var, yağı düşmən Vətənimizə yaxın gələ bilməz! Babək isə xalqımızın qəhrəmanlıq tarixindən söz açmışdır: "Tarixboyu öz Vətənini, azadlığını özün qorumusan. Bu əziz gündə azadlığın uğrunda canlarından keçənləri bir daha yada salır, onların qəhrəmanlığı önündə baş əyirik. Ey Azərbaycanım! Sən öz əzminlə qəvi düşmənləri diz çökməyə məcbur etdin! Azadlığını qazandın! İndi biz onu göz bəbəyi kimi qorumalıyıq. Ey Naxçıvanım! Babək oğlun deyir ki, sənə bayramlar yaraşır. Həmişə olduğu kimi, bu Novruz günlərində də övladın Babək sənin ayıq-sayıq əsgərindir".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bayram tədbirində çıxış edərək demişdir: Novruz bayramını əcdadlarımızdan bizə qalmış ən böyük milli dəyər kimi yüksək qiymətləndirən ulu öndərimiz Heydər Əliyev deyirdi ki, ***"Novruz bayramı... bizim, məhz Azərbaycan xalqının bayramıdır. Qədim zamanlardan bəri və bu gün də bu bayramı ən çox sevən, ən uca tutan Azərbaycan xalqıdır".***

Ali Məclisin Sədri Novruz bayramı münasibəti ilə tədbir iştirakçılarını, Naxçıvan Muxtar Respublikasının bütün əhalisini, Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən hərbi hissələrinin şəxsi heyətlərini təbrik edərək demişdir: Həmişə olduğu kimi, bu il də muxtar respublikamızda Novruz bayramı əmin-amanlıq içində, firavanlıq şəraitində qeyd olunur. Ötən il muxtar respublikada sabitliyin daha da möhkəmlənməsi, əhalinin rifah halının yaxşılaşdırılması sahəsində tədbirlər davam etdirilmiş, ümumi daxili məhsul istehsalı əvvəlki illə müqayisədə artaraq 2 milyard 500 milyon manatı ötmüşdür. Sosial-iqtisadi inkişaf sürətlənmiş, yeni emal və sənaye müəssisələri yaradılmışdır. Əldə olunan imkanlar hesabına infrastruktur obyektləri, məktəblər, idman və səhiyyə-sağlamlıq müəssisələri tikilərək istifadəyə verilmiş, sahibkarlıq inkişaf etdirilmişdir. 2016-cı ildə daha 49 yeni istehsal və xidmət sahəsi fəaliyyətə başlamış, ümumi daxili məhsul istehsalında özəl bölmənin payı artmışdır.

Qeyd olunmuşdur ki, indi sosial-iqtisadi inkişafın hüdudları daha da genişlənmişdir. Quruculuq və abadlaşdırma tədbirləri təkcə şəhər və rayon mərkəzlərini deyil, kənd və qəsəbələri də əhatə etmişdir. Bütövlükdə, kənd təsərrüfatı inkişaf etdirilmiş, ekoloji vəziyyətin qorunmasına, ətraf mühitin mühafizəsinə, yaşıllaşdırma və təbii ehtiyatlardan səmərəli istifadəyə diqqət artırılmışdır. Əhalinin mənzil şəraitinin və içməli su təminatının yaxşılaşdırılması ilə bağlı tədbirlər həmişə olduğu kimi, ötən il də diqqətdə saxlanmış, Naxçıvan şəhərinin ətraf kəndlərində, Şahbuz və Culfa şəhərlərində, eləcə də onlara bitişik ətraf kəndlərdə içməli su və kanalizasiya sistemləri istifadəyə verilmişdir. Energetika, rabitə və nəqliyyat sahələri də davamlı inkişaf etdirilmiş, Naxçıvan Muxtar Respublikasının ərazisi sürətli internetlə təmin olunmuş, dördüncü nəsil mobil rabitə şəbəkəsi yaradılaraq fəaliyyətə başlamışdır. Artan tələbata uyğun olaraq müasir yol-nəqliyyat sistemi qurulmuş, 62 kilometrlik yeni yollar salınmış, 5 yeni körpü və Naxçıvan Beynəlxalq Hava Limanının daha bir terminalı istifadəyə verilmişdir.

Ali Məclisin Sədri demişdir: Muxtar respublika iqtisadiyyatının əsas göstəricilərindən biri də xarici bazarlara rəqabətədavamlı məhsulların çıxarılmasıdır. Ötən il xarici ticarət dövriyyəsi artmış, əməliyyatların 90,5 faizi ixracın, 9,5 faizi isə idxalın payına düşmüşdür. Daxili bazarın xarici məhsullardan asılılığı artıq aradan qalxmışdır. Hər il olduğu kimi, ötən il də sosial inkişaf diqqətdə saxlanmış, 5080 şagird yerlik 14 məktəb, 4 həkim və 9 feldşer-mama məntəqəsi üçün binalar tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir. Təhsilə göstərilən qayğı öz bəhrəsini vermiş, qəbul imtahanlarında iştirak edən məzunlarımızdan 1737-si ali məktəblərin, 567-si isə orta ixtisas məktəblərinin tələbəsi olmuşdur. Ali məktəblərə qəbul olan 338 məzun 500-dən yuxarı bal toplamışdır. Tariximizin araşdırılmasına, milli-mənəvi dəyərlərimizə qayğı daha da artırılmış, ötən il "Naxçıvan tarixi" çoxcildliyinin nəşri başa çatdırılmış, xalqımızın əyilməzlik simvolu olan Əlincəqala və tarixi Gülüstan türbəsi bərpa edilmiş, Qarabağlar Türbə Kompleksində bərpa işlərinə başlanmışdır.

Ardı 2-ci səhifədə







Qeyd olunmuşdur ki, ötən illərin ən mühüm nəticəsi ərzaq və enerji təhlükəsizliyinin təmin olunmasıdır. Bununla yanaşı informasiya və müdafiə təhlükəsizliyi sahələrində də tədbirlər görülmüş, ordu hissələrinin müdafiə imkanları artırılmışdır. Bu gün qeyd etmək xoşdur ki, sosial-iqtisadi inkişaf sahəsində əldə olunan uğurlar məskunlaşmaya, əhali gəlirlərinin artmasına və demoqrafik vəziyyətə də öz təsirini göstərmiş, muxtar respublika əhalisinin sayı əvvəlki illə müqayisədə artaraq 450 min nəfərə çatmışdır. 2016-cı ildə də muxtar respublikanın sosial-iqtisadi inkişafına töhfəsini verənlərin əməyi yüksək qiymətləndirilmiş, 63 nəfər Azərbaycan Respublikasının müxtəlif orden, medal və fəxri adları ilə təltif edilmiş, 2 nəfərə ali hərbi rütbə verilmiş, 1 nəfər Azərbaycan Respublikası Prezidentinin fəxri diplomuna, 1 nəfər Prezident təqaüdünə, 9 nəfər Prezident mükafatına layiq görülmüşdür. Həmçinin 12 nəfərə Naxçıvan Muxtar Respublikasının fəxri adları verilmiş, 1 nəfər "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə", 15 nəfər isə "Rəşadətli əməyə görə" nişanları ilə təltif olunmuşdur.

Ali Məclisin Sədri insan əməyi olmadan inkişafın mümkün olmadığını diqqətə çatdırmış, muxtar respublikanın inkişafına öz töhfəsini verənlərin hamısına təşəkkürünü bildirmişdir.

"Bayramların firavanlıq və sabitlik şəraitində keçirilməsi insanlarda böyük fərəh hissi doğurur. Əldə etdiyimiz uğurların, sabitlik və əmin-amanlığın bir səbəbi var: o da davam və inkişaf etdirilən Heydər Əliyev yolu, insanlarımızın bu yola sədaqətidir", – deyən Ali Məclisin Sədri bir daha bayram münasibəti ilə təbriklərini çatdırmış, çıxışını ölkə Prezidenti cənab İlham Əliyevin 2017-ci il yanvarın 11-də muxtar respublikaya səfəri zamanı dediyi fikirlərlə tamamlamışdır: ***"Son illər ərzində Naxçıvan böyük inkişaf yolu keçmişdir. Naxçıvan şəhərinin abadlaşdırılması, gözəlləşdirilməsi, infrastruktur layihələrinin icrası, bütün şəhər və kəndlərin abadlaşması prosesi onu göstərir ki, respublika möhkəm ayaqda dayanır. Bu gün Naxçıvan Muxtar Respublikasının çiçəklənmə dövrüdür. Bütün istiqamətlər üzrə işlər uğurla gedir və gözəl nəticələr var".***

Sonra Ali Məclisin Sədri bayram tonqalını yandırmışdır.

Naxçıvan Musiqi Kollecinin "Naxçıvanqala" ritm qrupu maraqlı kompozisiya təqdim etmişdir.

Novruzun dövlət səviyyəsində qeyd olunması, bayramın milli varlığımızın rəmzinə çevrilməsi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyətin milli dəyərlərimizin yaşadılması istiqamətində həyata keçirdiyi tədbirlər sırasında Novruz bayramı xüsusi yer tutur. Bu gün Novruz bayramının ölkəmizdə əmin-amanlıq, sabitlik və inkişaf şəraitində qeyd olunması da ümummilli liderimizin siyasi xəttinə sədaqətin bəhrəsidir. Tədbirdə Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin Gənc Heydərçiləri ulu öndərə və vətənə həsr olunmuş şeirləri bədii qiraət etdilər.

Novruz bayramında səslənən xalq mahnıları, onların ifa olunduğu qədim musiqi alətlərimiz xalqımızın zəngin mədəni inkişaf yolu keçdiyini göstərir. Tarixi min illərə söykənən musiqi alətlərimizdə – tütək, tulum, zurna və balabanda təqdim olunan milli musiqi nümunələri bayram tədbirində xoş əhval yaratmışdır.

Şifahi xalq yaradıcılığının ən kamil nümunələrindən biri də aşıq sənətidir. Dədə Qorqud dastanından süzülüb cilalanan və zəngin ənənəyə malik olan aşıq sənəti özündə xalqımızın milli musiqisini, söz sənətimizin incəliklərini yaşadır. Aşıq havaları Azərbaycan xalqının bədii təfəkkürünün parlaq ifadəsidir. Naxçıvanda tarixən mövcud olmuş aşıq sənəti bu gün də yaşadılır, gənc nəslə öyrədilir, təbliğ edilir. Tədbirdə Naxçıvan Aşıqlar Birliyinin üzvləri tərəfindən ifa olunan "Qəhrəmani" aşıq havası alqışlarla qarşılanmışdır.

Yallılar xalqımızın etnoqrafik xüsusiyyətlərini özündə cəmləşdirir. Milli geyimlərimizi və bənzərsiz xalq musiqisini yaşadan yallılar bu gün də qorunur, gənc nəsillərə öyrədilir. Naxçıvan Musiqi Kollecinin rəqs ansamblının təqdim etdiyi "El yallısı" birlik və bərabərliyimizin ifadəsinə çevrilmişdir.

Baharın gəlişini təmtəraqla bayram edən əcdadlarımız Novruzla bağlı zəngin folklor nümunələri yaratmışlar. Hazırda bu folklor nümunələri gənc nəslə öyrədilərək yaşadılır. Təhsil ocaqlarında təşkil olunan dərnəklərdə xalq yaradıcılığına xüsusi diqqət yetirilir. Naxçıvan Qızlar Liseyinin şagirdlərinin ifasında göstərilən "Bayram axşamı, axır çərşənbə" kompozisiyası alqışlarla qarşılanmışdır.

Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin "Əlvan çiçəklər" rəqs ansamblının çıxışları, Naxçıvan Dövlət Uşaq Filarmoniyasının mahnı və rəqs ansamblının və Naxçıvan Musiqi Kollecinin Sazçalanlar ansamblının ifaları xoş ovqat yaratmış, Naxçıvan Dövlət Kukla Teatrı "Niyyət açarı" tamaşasını təqdim etmişdir.

Naxçıvan Dövlət Universitetinin yerli və xarici tələbələri "Tello" yallısını təqdim etmişlər. Ali Məclisin Sədri tələbələrin bayramını təbrik etmiş, onlarla şəkil çəkdirmişdir.

Ulularımızdan bizə yadigar qalan, milli ruhumuzu və yaddaşımızı bütün zənginliyi ilə özündə əks etdirən Novruz bayramı milli dəyərlərimizin əbədiyaşarlıq rəmzidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamına uyğun olaraq hər il Naxçıvanda Novruz bayramında xalq yaradıcılığı günlərinin keçirilməsi də bu mənada mühüm əhəmiyyət daşıyır. Çünki əcdadlarımız bu torpaqda zəngin mədəniyyət, adət-ənənələr və dəyərlər sistemi formalaşdırmışdır. 5 min il bundan əvvəl Naxçıvanqalada ilkin şəhər mədəniyyətinin yaranması, xalq sənətkarlığının müxtəlif sahələrinin inkişaf etməsi bunun bariz nümunəsidir. Vaxtilə el sənətkarlarının yaratdıqları əşyalar, məişət avadanlıqları bu gün həmin dövrlərdən xəbər verən maddi-mədəniyyət nümunələrinə çevrilmişlər. Naxçıvanda bu ənənə indi də yaşadılır. Tədbirdə oyma, dulusçuluq, papaqçılıq, xalçaçılıq, misgərlik kimi xalq sənətkarlığı nümunələri də nümayiş olunmuşdur.

Naxçıvan Musiqi Kollecinin yeni yaradılan "Bahar" qızlar ansamblı "Naxçıvanda bir quyu var" xalq mahnısını, Naxçıvan Dövlət Filarmoniyasının və Naxçıvan Dövlət Uşaq Filarmoniyasının üzvləri isə milli rəqslərimizdən ibarət kompozisiya təqdim etdilər.

Ali Məclisin Sədri uşaqlarla şəkil çəkdirdi.

Milli musiqi sənətimizin əsasını təşkil edən muğamlarımız dünyada tanıdılır, təbliğ olunur. Bu gün Naxçıvan Musiqi Kollecində, uşaq musiqi məktəblərində muğamlarımız gənc nəslə öyrədilir, istedadlı muğam ifaçıları üzə çıxarılır, el şənliklərində muğam ifalarına və xalq mahnılarına geniş yer verilir. Tədbirdə muğam qrupları çıxış etmiş, milli musiqi alətlərində xalq mahnılarımız səslənmişdir.

Bayram şənliyində ictimai-iaşə xidməti də göstərilmiş, yerli müəssisələrin istehsal etdikləri məhsulların satışı təşkil edilmiş, muxtar respublikada hazırlanan müxtəlif növ milli yeməklər, bayram şirniyyatları, şərbət və içkilər tədbir iştirakçılarına təklif olunmuşdur.

Ali Məclisin Sədri ictimai-iaşə xidmətinin təşkili ilə maraqlanmışdır.

Həmin gün muxtar respublikanın rayon mərkəzlərində də Novruz bayramı münasibətilə şənliklər keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Novruz bayramı muxtar respublikamızın bütün rayonlarında yüksək əhval-ruhiyyə ilə qeyd edilib

## *Şərur rayonu*

*Azərbaycanda Novruz bayramı, bununla bağlı adət-ənənələr sonralar yaranmış bütün digər bayram və mərasimlərdən üstün tutulub. Ona görə ki, Novruz baharın ilk günü, köhnə ilin öz yerini təzə ilə təhvil verdiyi, gecə ilə gündüzün bərabərləşdiyi gündür. Yaz zəhmət, əmək və nemət fəslidir. İlin bu fəslində hava təmiz, Günəş bol, arzular qanadlı, qəlblər ilhamla dolu olur. İnsanları baharın gəlməsi, təbiətin oyanması, həyatın canlanması ilə müjdələyən Novruz ən qədim dövrlərdən bəri xalqımızın sevinc, şadlıq bayramı olub, tariximizin müxtəlif dövrlərində bəzi təzyiqlərə və süni maneələrə məruz qalmasına baxmayaraq, bu günümüzə qədər gəlib çatıb.*



Muxtar respublikamızın hər yerində olduğu kimi, Şərur rayonunda da Novruz bayramına əvvəlcədən geniş hazırlıq işləri görülür. Bütün kəndlərdə və rayon mərkəzində Novruz adət-ənənələrinə uyğun təmizlik, abadlıq işləri görülür, səmənilər göyərdilir, bayram süfrələri bəzədilir.

Cari ildə də bayrama hərtərəfli hazırlaşan rayon ictimaiyyəti mart ayının 18-də Şərur şəhərinin Heydər Əliyev prospektindəki meydanda bu əziz günü təmtəraqla qeyd edib.

Bayramsayağı bəzədilmiş meydanda rayon Mədəniyyət və Turizm Şöbəsi musiqi kollektivlərinin hazırladıqları əyləncəli və rəngarəng proqramlar bayram şənliyinə toplaşanların alqışları ilə qarşılanıb. Novruz tonqalının ətrafında rəqs edənlərin, yallı gedənlərin, halay tutanların çıxışları, əllərində baharın rəmzi olan səməni tutmuş qızların meydan boyu hərəkətləri, Keçəl və Kosanın Novruz əhval-ruhiyyəli məzəli hərəkətləri və zarafatları tədbirə xoş ovqat gətirib.

"Arpaçay" instrumental ansamblının müşayiəti ilə müğənnilər Novruzu, baharı vəsf edən nəğmələr və xalq mahnıları, aşıqlar saz havacatları oxuyublar. Şərur Rayon Mədəniyyət Sarayının qarşısındakı meydanda isə uşaq musiqi məktəblərinin şagirdləri istedadlarını nümayiş etdiriblər.

Doğma Azərbaycanımızı beynəlxalq xalq yaradıcılığı festivallarında məharətlə təmsil edən və Şərura həmişə yüksək mükafatlarla dönən "Şərur" və "Şərur qönçələri" yallı kollektivləri ifa etdikləri xalq rəqsləri ilə şənliyi daha da rövnəqləndiriblər. Faytonda meydana daxil olan Bahar qız tədbir iştirakçılarını baharı vəsf edən nəğmə ilə salamlayıb.

Şənlikdə arzular, diləklər də bildirilib, Dədə Qorqud babamızın müdrik kəlamları xatırladılıb: "Torpağımız bərəkətli olsun, tonqallarımız heç vaxt sönməsin!"

Rayon ziyalısı Vidadi Süleymanov bizimlə söhbətdə bildirdi ki, Şərur bu gün özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. İnsanların bayramı yüksək əhval-ruhiyyə ilə qeyd etmələri də bununla əlaqədardır. Bu qədim yurd yeri bu gün hərtərəfli qayğı əhatəsindədir. İqtisadiyyat inkişaf etdirilir, yeni emal və sənaye müəssisələri yaradılır, quruculuq tədbirlərinin həcmi gündən-günə artır. Odur ki, Şərur hər il daha da gözəlləşir, insanların rifah halı yaxşılaşır. Bütün bunlar şərurluların qurub-yaratmaq əzminə

*Ardı 3-cü səhifədə*

öz təsirini göstərir. Rayon sakinləri Şərurun daha da çiçəklənməsi naminə müxtəlif sahələrdə qazandıqları uğurları artırırlar.

Muğanlı kənd sakini Vasif Məmmədov qeyd etdi ki, Şərur müasir Azərbaycan rayonunun canlı nümunəsidir. Bu, muxtar respublikada həyata keçirilən uğurlu quruculuq siyasətinin nəticəsidir. Şərur rayonunda da hər il müxtəlif təyinatlı obyektlərin açılışları olur. Yeni iş yerləri yaradılır. Ona görə də şərurluların bütün bayramları belə şən ovqatda qeyd etmələri təbiidir.

Ümumiyyətlə, Novruz şənlikləri Şərur rayonunda da xalqımızın birliyinin, yenilməzliyinin, əyilməzliyinin, keçmişimizə sadiqliyinin, gələcəyə böyük inamının simvolu kimi əsl bayram əhval-ruhiyyəsi, sevinc və şadlıqla qeyd edilib. Bayram münasibətilə keçirilən ümumrayon şənliyi yüksək səviyyədə təşkili ilə yadda qalıb, hər kəs bu tədbirdən xoş təəssüratlarla, sevinc hissləri ilə ayrılıb.

**Elman MƏMMƏDOV**



## *Babək rayonu*




***Ata-babalarımızdan bizə yadigar qalan, milli ruhumuzu özündə əks etdirən Novruz bayramı hər il yüksək əhval-ruhiyyə ilə qeyd olunur. Bu bayram münasibətilə Babək rayonunda da şənlik keçirilib.***

Rayon mərkəzində təşkil edilən tədbirin aparıcıları babəklilərə Novruz bayramı münasibətilə təbrik edərək bildiriblər ki, tarixi çox qədim olan Novruz bayramı hər il xalqımız tərəfindən böyük təntənə ilə qeyd olunur. Novruz bayramı təzə ili, baharın ilk gününü qarşılamaq deməkdir. Böyük mənəvi gücə malik Novruz bayramı ulu əcdadlarımızın bizə verdiyi ən gözəl yadigar olub. Bu bayram Azərbaycan xalqının milli ruhunu, onun daxili aləmini bütün zənginliyi ilə yaşadır. Qoy bu Novruz elimizə-obamıza əmin-amanlıq gətirsin, süfrələrimizin bərəkətini artırsın, həmrəyliyimizi əbədi etsin.

Bayram tonqalı alovlandırıldıqdan sonra Novruzu vəsf edən mahnılar oxunub, xalq mahnıları, aşıq havaları səsləndirilib. Babək Rayon Mədəniyyət və Turizm Şöbəsinin musiqi kollektivlərinin hazırladıqları konsert proqramı tədbir iştirakçılarında xoş ovqat yaradıb. Xalq



çalğı alətləri, nağaraçalanlar və sazçalanlar ansambllarının ifaları, rayon Mədəniyyət Evinin yallı qrupunun təqdim etdikləri rəqslər şənlik iştirakçıları tərəfindən alqışlarla qarşılanıb. Tədbirdə müxtəlif milli oyunlar, qədim məişət əşyaları, milli mətbəx nümunələri və şirniyyatlar, adət-ənənələrimiz, folklorumuz nümayiş etdirilib. Həmçinin tədbirdə yundarama, cəhrədə yunəyirmə, xalçatoxuma, kirkirədə qovut çəkmə, daşda ət döymə və sair kimi qədim el nümunələrimiz də ictimaiyyətin nümayəndələri tərəfindən maraqla izlənilib.

Bayram tədbirində bir neçə babəkli ilə görüşüb həmsöhbət olduq. Nehrəm kəndindən gəlmiş Akif Hacıyev dedi ki, Novruz milli dəyərləri, qədim keçmişimizi özündə yaşadan və hər bir azərbaycanlı üçün əziz bayramdır. Ulu əcdadlarımızdan bizə yadigar qalan bu bayramda xonçalar bəzənir, səmənilər qoyulur, küsülülər barışır, süfrələrimizi müxtəlif milli təamlar bəzəyir. Bu bayramı bütün başqa bayramlardan fərqləndirən cəhət bundan ibarətdir.

Qahab kənd sakini Əmrah Rzayev bildirdi ki, bu bayram bizim milli bayramımız olmaqla bərabər, həm də bütün dünyada ən qədim bayramlardandır. Babəklilər hər zaman bu bayramı böyük sevinclə qeyd ediblər. Novruzun dövlət səviyyəsində qeyd olunması bizi daha da qürurlandırır. Bu qürurun digər səbəbi isə budur ki, ildən-ilə dövlətimizin gücü daha da artır. Hər yerdə genişmiqyaslı quruculuq, abadlıq işləri aparılır, kəndlərimiz öz simasını dəyişir. Elə bunun özü də bir bayram sevincidir. Novruz bayramı isə bu sevincimizi ikiqat artırır.

**Muxtar RZAZADƏ**

## *Ordubad rayonu*

***Ölkəmizin, o cümlədən muxtar respublikamızın sürətli inkişafı hər birimizə böyük sevinc bəxş edib. İlin bu günlərində sevincimizi daha da artıran amillərə biri də əlavə olunur. Bu, xalqımızın yüz illər boyu yaşatdığı, milli ruhumuzu özündə əks etdirən Novruz bayramıdır.***





Muxtar respublikamızın hər yerində olduğu kimi, martın 18-də Ordubad rayonunda da qədim el bayramı münasibətilə şənlik keçirildi. Rayon mərkəzində təşkil edilən bayram şənliyində çıxış edən aparıcılar bildirdilər ki, əsrlərin sınağından çıxaraq milli dəyərlərimizi özündə yaşadan Novruz qədimdən bəri insanlar arasında həmrəylik, mərhəmət və mehribanlıq duyğularının təməli olub. Azərbaycanda milli bayram kimi hər il yüksək səviyyədə qeyd olunan Novruz xalqın müqəddəs ənənələrinə söykənməklə, özündə böyük bədii-estetik, mənəvi-əxlaqi, ülvi və dünyəvi duyğuları təcəssüm etdirir.

Tədbirdə iştirak edənlərə xeyir-dua vermək üçün el ağsaqqalı Dədə Qorqud meydana gəldi, öz xeyir-duasını verdi. Xalqımıza əmin-amanlıq, xoş günlər arzuladı.

Sonra bayram tonqalı yandırıldı. Tonqal ətrafında milli rəqslərimiz oynanıldı, Novruza aid şeirlər söylənildi.

Rayonun mədəniyyət evlərinin folklor qruplarının çıxışları alqışlarla qarşılandı.

“Xanbəzəmə” oyun-tamaşası Ordubadda hər il keçirilən Novruz şənliklərində təqdim olunan əsas ənənələrdəndir. Budur, musiqinin müşayiəti ilə xan, vəzir və vəkili meydana daxil olurlar. Kosa ilə Keçəl də şənliyə dəvət edilirlər. Onların təqdim etdikləri kompozisiya tədbir iştirakçılarında yüksək ovqat yaratdı. Qoçların döyüşü də maraqla qarşılandı.

Tədbirdə rayon Mədəniyyət Evinin “Dübəndi” instrumental ansamblı üzvlərinin ifasında Novruza, yazın gəlişinə həsr olunan mahnılar səsləndirildi.

Bayram tədbirində iştirak edən bir neçə rayon sakini ilə həmsöhbət olduq. Hüsniyyə Mərdanova dedi ki, Novruzun gəlişi hər il el-obamızda əsl şənliyə çevrilir. Ulu babalarımızın əsrlərlə yaşatdığı bu bayram ölkəmizin hər yerində olduğu kimi, Ordubadda da böyük sevinc hissi ilə qeyd olunur. Hələ keçmiş SSRİ dövründə Novruz bayramının keçirilməsinə icazə verilmədiyi vaxtda bu bölgədə bayram hər kəs tərəfindən böyük sevinclə qeyd edilib.

Telli Bağırova bildirdi ki, Novruz bizim ən əziz bayramımızdır. Bu bayramda küsülülər barışır, böyüklərimiz ziyarət olunur, qohum-əqrəba bir-birinə bayramlaşmağa gedir. Bu bayramla bağlı çox sayda adət-ənənələr mövcuddur ki, bu ənənələr bu gün də böyük ehtiramla qorunur və yaşadılır.

Rayon ziyalılarından Abbas Tağıyev və Behbud Hüseynov qeyd etdilər ki, muxtar respublikamızın hərtərəfli inkişaf və tərəqqisi bağlar diyarı olan Ordubada da yeni həyat bəxş edib. Həm rayon mərkəzində, həm də kənd yaşayış məntəqələrində aparılan kompleks quruculuq tədbirləri Ordubadın simasını tamamilə dəyişib, onu müasir rayona çevirib. Bu da Novruz şənliklərinin daha yüksək əhval-ruhiyyədə keçirilməsinə imkan verib.

**Fatma BABAYEVA**

## *Culfa rayonu*

*Əsrlərin sınağından çıxmış milli dəyərlərimizi, adət-ənənələrimizi özündə yaşadan Novruz bayramı Culfa rayonunda da qeyd edildi.*

Tədbirin aparıcıları Novruzun minilliklərin sınağından keçərək bu gün əsl birlik bayramına çevrildiyini və ümumxalq bayramı kimi hər il böyük təntənə ilə qeyd olunduğunu bildirdilər. Vurğulandı ki, Novruz hər bir azərbaycanlı üçün əziz olan, milli adət və ənənələrimizi yaşadıb dövrümüzə gətirib çıxaran, eləcə də bu gün bizi birləşdirən, daha da həmrəy edən bayramdır.

Ulu Dədə Qorqudun müdrik kəlamları, alqış və xeyir-duası ilə başlanan şənlikdə qılınc-qalxanlı cəngavərin keşiyini çəkdiyi tonqal alovlandırıldı, xalq yaradıcılığı nümunələri sərgiləndi.

Tədbir əsnasında həmsöhbət olduğum rayon sakini Ələkbər Quliyev dedi ki, Novruz arzu dolu sabahlara açılan qapı, hər bir azərbaycanlının, hər bir insanın, hər bir ailənin bayramıdır, bizim qədim Azərbaycanın bayramıdır. Müstəqillik illərində Culfa rayonu müasir bir bölgəyə çevrilib. Rayon mərkəzində, kənd yaşayış məntəqələrində tikinti-quruculuq tədbirləri geniş vüsət alıb. Bu da culfalılara böyük sevinc və fərəh bəxş edib. Onlar Novruzu sevinc hissləri ilə qarşılayırlar.

Novruz bayramı ilə bağlı arzularını, ürək sözlərini dilə gətirənlərdən biri də rayon sakini Məhəmməd Əliyev oldu. O dedi ki, zəngin mənəvi dəyərlərimizə söykənərək insanlar arasında qarşılıqlı hörmət, səmimiyyət və mehribanlıq münasibətlərinin yaranmasına səbəb olan Novruz bayramı xalqa gələcəyə nikbinliklə, ümidlə baxmaq hissləri aşılayır. Hər il olduğu kimi, Culfa rayonunun sakinləri bu il də Novruz bayramını qeyd etmək üçün bir araya gəliblər. Burada ictimaiyyətin nümayəndələri iştirak edirlər. Bu, yaxşı ənənədir. Yenə Novruzu bol ruzi, bərəkətlə qarşılayırıq. Ruzi-bərəkətimizin bolluğu muxtar respublikamızın bütün bölgələri kimi, Culfa rayonuna da göstərilən davamlı dövlət qayğısının bəhrəsidir.





Bahar qız, Kosa və Keçəlin iştirakı və duzlu-məzəli zarafatları ilə keçən bayram tədbirini mahnı və rəqs kollektivlərinin töhfələri rövnəqləndirdi. “Yallı”, “Tello” və digər milli rəqslərimizin usta rəqqasları tərəfindən ifası tamaşaçılarda xoş ovqat yaratdı. Müğənnilərdən Nazil Qulusoy, Gülnar Qasımova, Rəşad Nəcəfov, Elməddin İbrahimov tərəfindən səsləndirilən, baharı vəsf edən mahnılar şənlik iştirakçılarında bayram əhval-ruhiyyəsi yaratdı. Aslan Həmidlinin, İkram Nəcəflinin sazla, Kamil Abbasovun balaban və tütəklə ifa etdikləri mahnılar tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılandı. Şənliyə toplaşan tamaşaçıların sürəkli alqışları ilə qurşaq tutub güclərini nümayiş etdirən gənc pəhləvanlar bayrama əsl festival ab-havası qatdılar.

**Kərəm HƏSƏNOV**

*Ardı 4-cü səhifədə*

## Kəngərli rayonu

***Novruz bayramı tədbiri Kəngərli rayonunda da yüksək əhval-ruhiyyə ilə qeyd olunub. Qıvraq qəsəbəsindəki Heydər Əliyev Mədəniyyət və İstirahət Parkında keçirilən bayram şənliyində rayon sakinləri fəallıqla iştirak etdi.***



Novruz atributları ilə bəzədilmiş park bura toplaşmış hər kəsin zövqünü oxşayırdı. “Elimizə bahar gəlir” adlı bayram tədbiri at yarışı və xoruz döyüşdürmələri ilə başladı. Qaliblər hədiyyələrlə mükafatlandırıldılar. Rayon Mədəniyyət və Turizm Şöbəsinin “Kəngər” instrumental ansamblının, uşaq musiqi məktəblərinin musiqi kollektivlərinin, folklor qruplarının, rayon idmançılarının çıxışları, Keçəl və Kosanın nümayiş etdirdiyi oyunlar tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılandı. Tədbirin keçirildiyi ərazidə yerli ərzaq məhsullarından və müxtəlif əl işlərindən ibarət təşkil olunmuş sərgiyə də tamaşaçı marağı böyük idi.

Novruz bayramının təntənəli şəkildə keçirildiyi bu günlər Kəngərli rayonunun sakinləri üçün əlamətdar tarixlərdən biridir. Çünki bu rayon Novruz bayramı ərəfəsində – 2004-cü il martın 19-da yaradılıb. Bu barədə də bayram şənliyində ətraflı məlumat verildi. Qeyd olundu ki, yaradıldığı dövrdən ötən müddət ərzində Kəngərli rayonu böyük inkişaf yolu keçib. Rayon mərkəzi də daxil olmaqla bütün kəndlərdə infrastruktur layihələri reallaşdırılıb, yollar abadlaşdırılıb, yaşıllaşdırma tədbirləri həyata keçirilib, əhalinin rifah halı yaxşılaşıb.

Tədbir iştirakçıları ilə söhbətimizdə də bu fikirlər ifadə edildi. Rayon sakini İsmayıl Hüseynquliyev bildirdi ki, Kəngərli rayonunun yaradılması muxtar respublikamızın həyatında mühüm tarixi hadisədir. Ötən müddətdə rayonda görülmüş işlər öz həcminə görə fərqlənir. Bütün kəndlərimiz abadlaşdırılıb, əhalinin rahatlığı üçün kənd və xidmət mərkəzləri tikilib, yeni yollar salınıb. Bir zamanlar boş və baxımsız ərazi kimi qalan indiki rayon mərkəzi bu gün yaraşıqlı bir qəsəbəyə çevrilib. İndi bu rayona yolu düşən hər kəs Qıvraq qəsəbəsinin gözəlliyindən, yollarımızın abadlığından ağızdolusu danışır.



Qıvraq qəsəbə sakini Fəxri Mehbalıyev bildirdi ki, Kəngərli rayonunun ərazisi özünün qədim tarixi ilə seçilir. Buradakı yaşayış məntəqələrinin hər birində tariximizin və mədəniyyətimizin zəngin izləri vardır. Bu mədəniyyəti yaşatmaqla bərabər, həm də rayonun müasir inkişafı istiqamətində ötən 13 il ərzində böyük işlər görülüb. Kəngərli rayonu bu müddətdə özünəməxsus inkişaf yolu keçərək tərəqqiyə qovuşub. Rayon mərkəzi və kəndlər yeni yanaşma prinsipi ilə qurulub. Müasir memarlıq, yüksək dizayn Kəngərlinin simasını başdan-başa dəyişib. Bu günədək rayonda yüzdən artıq obyektin açılışı olub.

Digər rayon sakini Ülkər Gülməmmədova isə dedi ki, sakinlər indiyədək görülmüş işləri yüksək qiymətləndirir, bölgədə həyata keçirilən quruculuq işlərində fəallıq göstərir, rayon iqtisadiyyatının gücləndirilməsinə öz töhfələrini verirlər. Bütün sahələrdə qazanılan uğurlar, əldə olunan nailiyyətlər əhalinin əhval-ruhiyyəsini daha da yüksəldir, qurub-yaratmaq əzmini artırır.

Ana təbiətə sonsuz sevginin parlaq ifadəsi olan Novruzun sevinclə qarşılanması bayram şənliyində iştirak edən hər kəsin çöhrəsindən oxunurdu.

✍ **Səbuhi HƏSƏNOV**

## Şahbuz rayonu



***Xalqımızın milli bayramları arasında Novruzun xüsusi yeri vardır. Uzaq-yaxın, hər kəsi bir araya gətirən bu bayramda hamı sevinir. Xeyir-bərəkəti ilə də hər kəsi sevindirən Novruzda təbiət qədər insanlara da yeni ruh, yeni nəfəs gəlir. Bu il də Şahbuzda bayram şənliyi böyük sevinclə keçirildi, yaddaqalan oldu.***

Şahbuz muxtar respublikamızın özünəməxsus füsunkar təbiət gözəllikləri olan bölgələrindəndir. Novruzda isə bu gözəllik daha da artır. Builki bayramda havanın da gözəl keçməsi ilə bütün şahbuzlular şəhər mərkəzinə, istirahət parkına toplanıb bir-birini təbrik edir, bayramlaşırdı. El ağsaqqalı Dədə Qorqudun, Bahar qızın gəlişi ilə başlanan tədbirdə bayram tonqalı yandırıldıqdan sonra rayonda fəaliyyət göstərən xalq çalğı alətləri ansamblının çıxışları oldu. Ansamblın solistlərindən Həsən Qurbanovun, Nəsimi Təhməzovun və başqalarının ifasında səslənən mahnılar alqışlarla qarşılandı.

Şahbuz milli folklor adətlərimizin yaşadıldığı rayonlardan biridir. Zirvəsi hələ də qarlı olan dağlardan əks-səda verən qara zurnanın səsi altında çıxış edən rəqs kollektivlərinin ifalarına baxmağa dəyərdi. Novruzda hamının maraqla izlədiyi Kosa və Keçəlin duzlu-məzəli söhbətlərindən sonra rayonun kəndlərində fəaliyyət göstərən folklor qruplarının çıxışları da maraqla qarşılandı. Rayonun Badamlı, Keçili, Yuxarı Qışlaq kənd mədəniyyət evləri kollektivlərinin çıxışları rayon sakinlərində yüksək bayram əhval-ruhiyyəsi yaratdı.

Şahbuza məxsus “Üçayaq”, “Hodu-hodu”, “Çöpüdü” xalq oyunlarına Novruz bayramında tamaşa etməyin öz yeri vardır. Bu oyunlarda xalqımızın min illərdən bəri gələn adət-ənənələrinin saflığı, onların cazibəsi yaşadılır.



Şahbuz Rayon Uşaq-gənclər idman məktəbi şagirdlərinin güc və çeviklik nümayiş etdirən müxtəlif idman növləri üzrə nümunəvi çıxışları, qədim xalq sənətkarlığı, milli mətbəx və əl işləri sərgiləri bayramı yaraşıq verirdi. Şahbuz şəhər parkında təşkil olunmuş rəngarəng xidmətlər, milli şirniyyatlı çay süfrəsi şahbuzluların rahat istirahət edə bilmələri üçün gözəl ab-hava yaratmışdı. Burada həmsöhbət olduğumuz Şahbuz şəhər sakini Təmrixa Cəbiyev Novruzu böyük sevinclə qarşıladığını dedi. Bildirdi ki, ötən ildən bəri Şahbuz daha da gözəlləşib, muxtar respublikamızdakı genişmiqyaslı quruculuqdan bu rayona da böyük pay düşüb. Şəhərimizdə, ətraf kəndlərdə yeni içməli su şəbəkəsi çəkilib, rayonda yeni məktəblər, kənd mərkəzləri istifadəyə verilib, yollar salınıb. Bu ilin əvvəlində ölkə Prezidentinin rayonumuza səfəri bizdə böyük sevinc yaradan hadisə olub. Bütün bunlar yada salanda bu Novruzdakı sevincimiz daha da artır.

Qeyd edək ki, Şahbuzda keçirilən builki Novruz bayramı tədbiri əhaliyə göstərilən ticarət və iaşə xidmətləri ilə bütün gün ərzində davam etdirilib.

✍ **Əli CABBAROV**

## Sədərək rayonu

*Novruz bayramı münasibətilə martın 18-də Sədərəkdə də bayram tədbiri keçirilib.*

Tədbirdə Sədərək rayonunun musiqi kollektivləri folklorumuzdan yadigar olan sözlü, nəğməli nümunələr ifa etdilər. Kosa, Keçəl və Bahar qızın çıxışları, rəngarəng konsert proqramı hər kəsdə bayram ovqatı yaratdı. Milli rəqslərimiz, yallılarımız, barlı-bərəkətli Novruzu, qədim diyarımızı tərənnüm edən mahnılar bayram şənliyi iştirakçılarına xoş ovqat bəxş etdi.

Şənlikdə rayon sakinləri ilə də görüşüb həmsöhbət olduq. Ömrünün 80-ci ilini geridə qoymuş kənd ağsaqqalı Teymur Quliyev dedi ki, Sədərək sakinləri bütün bayramları, eləcə də Novruz bayramını əminamanlıqda qarşılayır, insanlar bayram tonqalları qalayır, şənlik edirlər. Şən mahnıların səsi sərhədin o tayına, mənfur düşmənin yaşayış məntəqələrinə qədər gedib çıxır. İllər öncə Heydərabad qəsəbəsinin ərazisində nəinki tonqal qalamaq, hətta sərbəst şəkildə gəzməkdən belə, söhbət gedə bilməzdi. İndi isə vəziyyət başqadır. Düşmən artıq ordumuzun qüvvəsini yaxşı bilir. Bilir ki, onlar tərəfindən atılan hər hansı bir səhv addım ağır nəticələrə gətirib çıxara bilər. Bugünkü Novruz şənliyində insanların bu qədər arxayınlıqla iştirak etməsi bir daha onu göstərir ki, sədərəklilər dövlətimizin gücünə, qüdrətinə tam əmindirlər. Elə bu əminlik də rayon sakinlərini torpağa, yurda daha sıx tellərlə bağlayır, onları daha yaxşı işləməyə, Sədərəyi daha da çiçəkləndirməyə sövq edir.



Rayon sakinlərindən Vaqif Seyidov və Arif Vəliyev də bayram təəssüratlarını bizimlə bölüşdülər. Həmsöhbətlərimiz dedilər ki, sədərəklilər Novruz bayramını böyük ruh yüksəkliyi ilə qarşılayırlar. Çünki qarşıdan gələn hər ildə Sədərəkdə yeni-yeni quruculuq ünvanları yaradılır, yollar, məktəblər, bağçalar tikilir, yeni iş yerləri açılır, əhalinin gün-güzəranı yaxşılaşır. Hər bir sədərəkli göstərilən qayğıya görə dövlətimizə minnətdardır.



Sonra bayram şənliyinin iştirakçıları el sənətkarlarının arayaərsəyə gətirdikləri bir-birindən zövqlə işlənmiş xalq yaradıcılığı nümunələrindən ibarət sərgi ilə tanış oldular. Sərgidə xalq sənətinin ağacişləmə, dülgərlik, toxuculuq, xalçaçılıq, dəmirçilik, daşyonma sahələrini özündə əks etdirən əl işlərinə maraq daha çox idi. Burada yerli istehsal olan müxtəlif çeşiddə şirniyyatlar, eləcə də digər qida məhsulları da sərgilənirdi. Bu, qısa zamanda rayonda ərzaq bolluğunun yaradılması istiqamətində görülən işlərdə böyük məsafə qət edildiyinin göstəricisi kimi diqqəti cəlb edir.

✍ **Səbuhi HÜSEYNOV**


**ŞƏRQ qapısı**

Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 233